# AZƏRBAYCAN VƏ TÜRK NAĞILLARINDA ALMA MOTİVİ

Şifahi xalq ədəbiyyatının bir çox janrlarında işlənən alma motivi Azərbaycan və türk nağıllarında da özünü göstərməkdədir. Nağıl xalq yaradıcılığının məhsulu olub, nəsildən-nəslə keçərək yaşayan, xalqın həyat, məişət tərzini, ənənələrini və cəmiyyətdəki ictimai ziddiyyətləri qabarıq halda, bədii uydurmalar vasitəsilə əks etdirən, sonu nikbin əhvali-ruhiyyə ilə qurtaran bir janrdır. Nağıl xalq içərisində daha çox yayılan, sevilən və söylənilən janr olduğu üçün toplayıcılar da çox zaman ilk növbədə nağıla müraciət etmiş və şifahi dildən yazaraq mümkün olanları çap etmişlər. Şifahi ənənənin ən zəngin növü olan nağıllarda alma fərqli xüsusiyyətlərlə ortaya çıxır. Türk nağıllarında alma dəyişiklik, forma və görünüşün dəyişdirilməsi obyekti kimi həm mükafat, həm də cəzalandırmada istifadə olunur. Nağıllarda almanın bir çox özəllikləri var ki, bunlara alma vasitəsilə cavanlaşma, ölümsüzlük meyvəsi olan alma, ölümsüzlük ağacı olan alma ağacı, alma iyləyərək cana gəlmə, sehrli alma vasitəsilə yenidən həyata qayıtma, alma yeyərək qoşa buynuz çıxartma və s. aiddir. Nağıllarda müəyyən bir dağda yeddi ildən bir bitən almada ruh, can, cavanlaşdırma, ölümsüzlük bəxş etmə vardır. Nağıllarda almanın ümumi bir meyvə olaraq istifadəsi, alma və alma ağacının mifoloji mənşəyinə aid edilə bilər.

Şifahi xalq yaradıcılığının ən qədim janrı olan nağıllar müəyyən struktura və özünəməxsus dilə malikdir. Bu strukturda da biz alma motivini görə bilərik. Bütün dünya xalqlarının nağılları üç bölümdən ibarətdir: nağılın əvvəli, özü, yəni əsas hissəsi və sonu. Belə ki, nağıllar başlanğıc formulu ilə başlayır, sonra əsas hadisələr cərəyan edir, sonda isə sonluq formulu ilə yekunlaşır [1, s. 11]. Bu bölümlər bir-birindən sabit, dəyişməz qalan ənənəvi formullarla ayrılır. Bu məsələ dünya şifahi ənənəsində, həmçinin Azərbaycan və Türkiyə folklorunun nağıl janrında da oxşardır. Sonluq formullarında istifadə edilən "göydən üç alma düşdü" motivi bir çox Şərq xalqlarının, daha çox Azərbaycan və Türkiyə nağılları üçün daha çox xarakterikdir. Məsələn, "Onlar yeyib içib yerə keçib, biz də yeyək içək, dövrə keçək. Göydən üç alma düşdü, biri mənim, biri nağıl deyənin, biri də dinləyənin"; "Göydən üç alma düşdü, biri nağıl söyləyənin, biri nağıla qulaq asanların, biri də nağılı yadında saxlayanın"; "Onlar yeyib-içib yerə keçdilər, siz də yeyin için, ömür sürün. Göydən üç alma düşdü, biri mənim, biri sənin, biri də bacadan baxanın"; "Onlar yedi yerə keçdilər, siz də yeyin xoşbəxt olun. Göydən üç alma düşdü, biri mənim, biri nağıl deyənin, o bir dənədən nə olacaq, o da olsun özümün"; "Göydən üç alma düşdü. Biri baxt quşunun, biri tikənçinin, biri də nağıl söylüyənin"; "Göydən üç alma düşdü, üçü də öz ağzıma düşdü" [1, s. 111]; "Gökden üç elma düştü. Biri yeni çife, biri meseli anadana. Biri dinneyennere..."; "Gökden üç elma düştü. Birini yedim ben. Birini yedi masalcı. Üçüncüyü de yedi dinneyenner", "Gökden üç elma düştü. Biri söyleyene, biri dinleyene, biri yanımdakı arkadaşa"; "Gökden üç elma düşmüş. Birisi bana, ikisi de dinleyenlere. Burada da masal bitmiş" və s [4; 5].

Topladığı nağılların hamısını göydən almaların düşməsi ilə yekunlaşdıran E.C.Güneyin nağıllarında bu formulun daha maraqlı və fərqli nümunələrinə rast gəlmək olar: "Gökden üç elma düştü. Biri, bu masalı dizip koşana; biri, okuyup dinleyene, birini okudum, üfledim insan çocuğumun ruhuna bağışladım"; "Gayri karadı köz, tükendi söz; gökden üç elma daha düşdü anasız kuzulara kol, kanat olanların başına...". Müəyyən qədər ənənəvi üsullardan yararlanan E.C.Güney daha çox öz təxəyyülünün bəhrəsi olan bu formulları nağılların məzmunu ilə bağlayır [6].

Sözügedən formullarda qədim türk inanc sistemində müqəddəs meyvə sayılan alma payı müxtəlif şəkildə bölüşdürülür, çox zaman isə söyləyici birbaşa və ya dolayı yolla almaların hamısının özünə qaldığını zarafatla vurğulayır. Bu formulun Azərbaycan nağıllarında daha çox və müxtəlif variantları işlənir: "Atasını öldürüb özü padşah oldu. Həmin vəziri də özünə baş vəzir elədi. Göydən üç alma düşdü, biri mənim, biri özümün, biri də nağıl deyənin. Siz də yeyin, mən də"; "Göydən üş alma düşdü, biri mənim, biri özümün, biri də nağıl deyənin, tap görüm almalar kimə qaldı"; "Göydən üç alma düşdü. Biri mənim, biri nağıl deyənin, biri də özümün. Sən sağ, mən salamat. Sən yüz yaşa, mən iki əlli, hansı çoxdu, onu sən götür"; "Onlar yedi, içdi, yerə keçdilər. Siz də yeyin, için, kama çatın. Göydən üç alma düşdü. Biri mənim, biri özümün, biri də nağıl danışanın" [1].

Türkiyə nağıllarının sonunda bu varianta az rast gəlinir, burada daha çox almaların yarıbayarı bölünməsi üstünlük təşkil edir: "Gökden üç elma düşmüş. Biri bu masalı yapana, biri okuyanlara. Biri de bana"; "Gökden üç elma düşmüş; biri bu masalı dizip, koşana; biri okuyup dinleyene; birini de okudum, üfledim; insan çocuğumun ruhuna bağışladım"; "Gökden üç elma düştü. Biri anlatanın, biri söyleyenin, biri de benim"; "Gökden üç elma düştü. İkisi sizin, birisi benim". Sadalanan formulları nağılçının yaradıcılığının bəhrəsi də hesab etmək olar. Ümumiyyətlə, Azərbaycan və Türkiyə epik ənənəsində "alma" meyvəsi müqəddəs hesab olunur və onun vasitəsilə nakam arzuların həyata keçdiyinin şahidi oluruq.

Nağıllarımızın bir növü olan sehrli nağıllarda qəhrəmanın sehrli köməkçisi kimi ecazkar xüsusiyyətlərə malikdir. Həm tilsimə, həm də nağıla aid olan sehrli formullar insanın sözə verdiyi əhəmiyyəti ilə bağlıdır. İnsanın şüuruna təsir edə bilən qeyri-adi, cazibəli sözlərlə, formullarla nağıllardakı personajlar öz istəklərinə nail ola biləcəklərini düşünürlər. Belə formullar həm müstəqil, həm də dialoq tərkibində mövcud olur. Azərbaycan və Türkiyə nağıllarında qəhrəmanlar "sehrli at", "sehrli süfrə", "özü yeriyən ayaqqabı", "sehrli üzük", "uçan xalça", "sehrli çubuq", "sehrli alma", "sehrli süfrə", "sehrli dovşan", "sehrli bulaq" "sehrli ayna", "sehrli xoruz", "sehrli əncir ağacı", "alma ağacı", "sehrli dəyirman" və başqa köməkçi vasitələrdən ibarət ənənəvi formulların köməyi ilə arzularının həyata keçməsinə nail olurlar. "Sehrli alma"dan ibarət epik formullar Azərbaycan və Türkiyə nağıllarında daha geniş yayılıb: Məsələn, "Bu almanı görəndə o saat başa düşdü ki, bu almada bir sirr var. Xudavəndi-aləmin qüdrətindən deyir, yaxa qurtarsa, təbib qarşı gələr öz-özünə; "Aldım ele, vurdum yere, veren Allah bir can vere, deyip alır elmayı, vurur yere, şehzade de elma gibi kızara, bozara gelir meydana"[2].

Novikov qeyd edir: "Sehrli nağılların qəhrəmanının köməkçiləri və tərəfdarları müxtəlif və saysızdır. Qəhrəman onlarla hər addımda qarşılaşır və məkrli düşmənlə mübarizədə onların dəstəyindən istifadə edir. Əsasən sehrli nağıllarda istifadə olunan sehrli köməkçi vasitələr qəhrəmanların qarşısında duran tapşırıqların yerinə yetirilməsində yardımçı olur. F.Bayat onları aşağıdakı şəkildə qruplaşdırır: a) silah-qılınc, qalxan, ox və s; b) meyvə və giləmeyvələr-alma, armud, gavalı və s; c) məişət əşyaları - xalça, süfrə, papaq, üzük. Sadalanan əşyalar demək olar ki, əksər nağıllarda tətbiq olunur [7, s. 52].

Azərbaycan nağıllarında çox təsadüf olunan şahın qəhrəmana, sarayın işçilərinə əmrini əks etdirən bu cümlələri əslində qəhrəmanı ölümə göndərməsidir: "Uzun danışma, qırx günə kimi almanı gətirdin, gətirdin, gətirmədin, boynunu vurduracağam". "Yeddi dağ alması" nağılında padşah İbrahimə deyir ki, əgər mənə Yeddi dağ almasınından üç alma dərib gətirsən, qızım Pərinuşu sənə verəcəyəm, yox, götürüb gələ bilməsən, mənim səninlə qohumluğum tutmaz. İbrahim çətinliklərin öhdəsindən gələrək almanı gətirir. "Moltanı padşahı" nağılında isə padşah oğluna rəml alması gətirməyi tapşırır. Atası onu hər dəfəsində ölümə göndərirdi. Oğlana zümrüd quşu kömək edir. Üç dağ aşır, üçüncü dağda olan abid ona üç sual verir. Oğlan suallara cavab verir və abid ona bir yel atının balasını, bir də barmağındakı üzüyün birini verib deyir ki, bunları sənə bağışladım. Bunlar səni xətadan-bəladan qurtarıb rəml dağına aparacaq. Rəml almasını da əlinlə dərmə, bir ucu haça ağac tapıb dərərsən. Oğlan almaları dərib atasına aparır.

Azərbaycan tədqiqatçısı Əhliman Axundov nağıllarda olan alma motivi haqqında belə deyir: "Nağıllarda alma dirilik, cavanlıq və həyat meyvəsi kimi təsvir edilir". Nağıllarda almanın bildiyimiz kimi bununla yanaşı bir çox özəlliyi vardır. Alma nağıllarda ölüyü diriltmə, çoxaltma, gəncləşdirmə, ölümdən qurtarma, buynuz çıxartma, sevgini elan etmə, cilddəyişmə və s. kimi funksiyaları da vardır.

"Altı kız babası" adlı nağılda alma zənginlik və sınama simvoludur. Nağıl, "qızıldan bir alma"nı bəyin oğlunun cibindən götürmək iddiaları və cəsarəti üzərində quruludur. "Elma yanaklı kız"-da padşahın alma bağındakı almalar kimi gözəl yanağlı bir qızla evlənmək istəyən oğlu vardır.

Anadolu ərazisində "Aynı kızı seven üç kardeş" adıyla tanınan və Qazaxıstanda "Xanın üç oğlu", Türkmənistan variantında isə "Qızıl alma" adı ilə təsvir edilməkdə olan nağılda almanın diriltmə, can vermə funksiyası özünü göstərməkdədir. Bu nağılda eyni qızı sevən üç qardaş vardır. Qız bunlara digər ölkələrə gedib bir ilə kim ən yaxşı hədiyyəni gətirsə onunla evlənəcəm deyir. Bu müddətə gənclərədən biri üstünə minən insanı istədiyi bir yerə aparan xalça, ikincisi baxarkən istədiyi insanı göstərən güzgü, digəri isə ölmək üzrə olan bir insanın ağzına qoyulanda onun yenidən həyata qaytaran bir alma alırlar. Bir araya gələn gənclər bir-birilərinə aldıqları hədiyyələrin nə etdiklərini göstərirlər. Əvvəlcə aynaya baxırlar və evlənmək istədikləri qızın ölmək üzrə olduğunu görürlər. Tez xalçaya minib qızın yanına gəlirlər. Almanı qıza yedirərək onu yenidən həyata qaytarıb canlanmasına, sağalmasına, ölümdən qurtulmasına səbəb olurlar. Beləcə qız alma sayəsində yenidən can qazanır. Bu nağıl Qaraçay türkləri arasında bir tapmaca kimi keçir və qızdan hədiyyə gətirən gənclərdən hansı ilə evlənmək lazım olduğu soruşulur. Cavabı alma gətirən gəncdir. Çünki başqalarının hədiyyəsi hələ də qalarkən üçüncü gəncin hədiyyəsi qurtarmışdır.

Anadolu nağıllarında alma, sağaldıcı, müalicə edici, canlandırıcı funksiyaya sahibdir və uşağı olmayanlara yedirdiləndə uşaq sahibi olacaqlarına inanılan bir meyvədir.

Türklərdə simvolik bir məna kəsb edən və inancları ilə birbaşa əlaqəli olan ağac kultu, müxtəlif rəvayətlərdə, inanclarda və tətbiqlərdə günümüzə qədər gətirilmişdir. Alma ağacının varlığını bugünkü nağıllarımızda bir kult olaraq görürük. Pervin Ergün, bütün Türk dünyasında eyni adla bəhs edilən alma sözünün mənşəyinin "Aal Luuk Mas"dan qaynaqlandığını və bu ağacın şamanist təsiri olan Saxa türklərində həyat ağacı olduğunu söyləyir. Pervin Ergün zürriyyət simvolu olan almanın türk nağıllarında Tanrı kutunun simvolu olduğunu söyləyir. Tanrı tərəfindən kut verilən qəhrəmanlar, valideynləri qoca yaşlarında olanda onlara bir dərvişin verdiyi almanı yemələrindən sonra dünyaya gəlirlər. Bu uşağın adı da həmin alma verən şəxs tərəfindən qoyulur. Türk nağıllarında övladı olmayan padşahın zürriyyət sahibi olması müqəddəs almanın bir dəyişiklik gətirməsi nəticəsində olur. "Dünya Güzeli" adlı nağılda padşah və lalasının övladı olmurmuş. Dərdlərinə dərman tapmaq üçün qürbətə üz tuturlar və bir suyun kənarında dərvişin verdiyi alma ilə ikisinin də oğlan uşaqları dünyaya gəlir. Alma övladı olmayan şəxslərdə bir ümid yeri olmuşdur.

Nağıllarda uşaq sahibi olmayanlara alma bir dərviş tərəfindən verilir və həmin alma sayəsində uşaq sahibi olurlar. Verilən alma əksərən yoldaşları arasında yarı-yarıya bölünərək yeyilir. Dərvişin verdiyi alma ilə "Leylek" və "Tasa kuşu" nağıllarında padşahın qızı, "Melikşah", "Üç turunçlar" və "Serencam" nağıllarında isə oğlan uşağı olur. "Məlik Məmmədlə Məlik Əhməd" nağılında padşah çarhovuzun suyunun üzündə üzən almanı götürüb evə gəlir və onu tən yarı bölür, yarısını qonşusu naxırçıya verir ki, arvadıyla yesin, yarısını da özü hərəmiylə yeyir. Beləliklə, onların övladları olur. "Cantiq" nağılında dərviş padşaha bir alma verdi və dedi ki, gecə hərəmxanaya gedəndə bu almanın yarısını sən ye, yarısını da arvadına ver. Padşah dərvişin dediyi kimi edir və uşağı olur. "Gül Sənavərə neylədi, Sənavər gülə neylədi" adlı nağılda padşahın uşağı olmurdu. Dərviş ona üç alma verib dedi ki, hərəsinin bir üzün yeyib, bir üzün də hər arvadının birinə ver. Hər arvaddan bir oğlun olar, ancaq bu şərtlə ki, oğlanların biri mənimdi. Padşah razı olur. Və beləliklə, onun hər arvaddan bir oğlu olur. "Şahzadə Mütalib" nağılında hava qaranlıqlaşanda bir parça qara bulud endi və düz padşahın qabağında parçalandı, ortasından qırmızı bir alma tullanıb düz padşahın qucağına düşdü. Padşah ayılıb qucağında almanı gördü.

***(Davamı var)***



***Aytac ƏFƏNDİZADƏ,***
***Bakı Dövlət Universiteti,***
***magistrant***